

شنبه 11 اردیبهشت 1395 - 00:46

## Trkiy parlamentind Qalmaqal

.Trkiy Byk Millt Mclisind (TBMM) deputatlarn yaralanmas il nticlnn dava ba verib



**AranNews-** TBMM-in Konstitusiya Komissiyasında toxunulmazlıqlara bağlı Konstitusiyaya dəyişiklik təklifinin müzakirə olunduğu zaman AK parti ilə HDP-li (PKK yönlü Xalqların Demokratik Partiyası) millət vəkilləri arasında dava olub. Bir-birinə yumruqla zərbələr vuran .deputatlardan 5-i yaralanıb. Onlardan 3-nün AK Parti-li, 2-nin isə HDP-li deputat olduğu bildirilir

Davanın əsl səbəbi HDP-nin Şırnakdan olan millət vəkili Fərhad Encünün ölkənin cənubi-şərq .əyalətlərində davam edən anti-terror əməliyyatlarını tənqid edərkən işlətdiyi ifadələr olub

PKK terrorçuları ilə mübarizə aparan türk əsgərinə və polisinə "dinc sakinləri öldürür" deyə .böhtan atan HDP millət vəkili ilə AKP millət vəkilləri arasında mübahisə yaranıb

Yaralı deputatlar xəstəxanaya yerləşirilib. Qalmaqal böyüdüyünə görə toplantı növbəti günə .təxirə salınıb



قدرت گرفته از پرتال شمس - ITShams.ir